Qoy enli kürəkləri,
Qüvvətli biləkləri,
Şirin sözu, söhbəti,
Ürək açan sifəti,
Qəşəng göz-qaşı olsun.
Qızlar, çalışın, amma,
Bu gözəl oğlanların,
Bir də açıq ürəyi,
Ağıllı başı olsun!

## TƏNQİD

Bir adət olmuşdur tənqidçilərdə:
"Yeni söz deməyib şair əsərdə"
Şükr olsun, şairlər çoxdandır bilir,
Bu tənqid özü də yeni deyildir.

## "TƏNQİD"

Şimşək bil yol parladı
İşığı aləmi qamarladı.
Titrətdi dağı-daşı
Yaman çaxdı!
*Onluq gecə lampası*
baxdı-baxdı,
Güldü şimşəyə:
– Bir atım barıtın
Var imiş – deyə.

Daha bilmədi ki,
O ağlı dəyaz;
Lampadan şimşəyə
Əsla tay olmaz!



# Təbiət

## ƏGƏR BİLSƏYDİ...

Xəzri əsir
uzanır dənizin dili,
Buğum-buğum ləpələr
yalayır sahili.
Aparır qumu,
Gətirir qumu,
Dəniz öz işindədir;
Bilmir heç,
Soruşmur heç
Kim olduğumu.
Oyur qumu,
Yuyur qumu
Ah, bilsəydi,
Ah, bilsəydi
Mənim nələr
duyduğumu!..

## YAĞIŞ YAĞIR

Damlalar, damlalar
səs salır hər yana,
İlk bahar, ilk bahar
gəlibdir cahana.
Yağışın səsinə as qulaq,
Dərdi də, qəmi də tez burax!
Səsimiz qarışsın yağışın səsinə,
Sevişək, sevgilim, hicranın üzünü
Çevirək tərsinə.
Yağışa as qulaq,

Dərdi də, qəmi də tez burax!
Damlalar, damlalar azalır,
Səbr elə, sevgilim,
Vüsala az qalır.

## GÜLLƏR

Sən təbiətə bax
Sarı, qırmızı, ağ,
Bağlarda, güllər əkilir,
Güllərə gözlər dikilir,
Biri deyir: dərək,
yara göndərək!
Biri deyir: – qoparaq,
yasa aparaq!
Güllər qırmızı, ağ, sarı
Mum kimi!
Elə bil açılmamış
Ölümə məhkum kimi!
Mən deyirəm, əl saxlasın
Yasa da, sevdiyi qıza da
Gül aparanlar!
Gülə də, çiçəyə də
Ömür verək!
Dərməyək onları –
Açılmamış fidanları!
Qoy bol olsun güllər,
Öz budağında açsın,
Ətrini saçsın,
Solsun, tökülsün yerə!
Dostlar, ömür verək,
Həyat verək həyatımızı
Bəzəyən güllərə!



## SÖYÜD

İsti yay günündə bir söyüd altda
Uzandım bir qədər dincəlim deyə.
Məni görən kimi kölgəliyində
Başladı yarpaqlar yaman əsməyə.

O, yaşıl söyüdə nə oldu görən
Niyə küyə düşdü o, nədən qorxdu?
Sərin kölgəsində uzananda mən
Külək əsməyirdi, tufan da yoxdu.

Haça yarpaqları qəşəngdi, lakin,
Bir üzü yaşıldı, bir üzü ağdı,
Bir şeyə iki üz verən təbiət,
Məni fikrə çəkdi, heyran buraxdı.

Baxdım mən söyüdə heyrətlə baxdım,
Yarpaqlar pıçhapıç pıçıldaşırdı.
Barsız iki rəngli bu yarpaqlara
Gizli pıçıltılar çox yaraşırdı.

Durdum qəmli-qəmli düzəldim yola,
Dedim: – açıq olar hər sözü mərdin.
Ayağın olsaydı bu pıçhapıçla,
Yüz illik dostları düşmən edərdin.

## HƏYAT VERƏK

Sən təbiətə bax
Sarı, qırmızı, ağ,
Bağlarda, güllər əkilir,
Güllərə gözlər dikilir,
Biri deyir: – dərək,
Yara göndərək!

Biri deyir: – qoparaq,
Yasa aparaq!
Güllər qırmızı, ağ, sarı
Mum kimi!
Elə bil açılmamış
Ölümə məhkum kimi!
Mən deyirəm, əl saxlasın
Yasa da, sevdiyi qıza da
Gül aparanlar!
Gülə də, çiçəyə də
Ömür verək!
Dərməyək onları –
Açılmamış fidanları!
Qoy bol olsun güllər,
Öz budağında açsın,
Ətrini saçsın,
Solsun, tökülsün yerə!
Dostlar, ömür verək,
Həyat verək həyatımızı
Bəzəyən güllərə!

## SUAL

Külək yaman əsdi,
Bütün gecəni.
Əvvəl yoxladı guya
Ağacı, damı,
Hətta adamı.
Bir sözlə
Əlinə keçəni.
Bütün gecəni,
Əsdi, amma..
Bir toyuq hinini
Aşırdı,



Bir uşaq köynəyini
Qaçırdı,
Uzağa atdı.
Bir az da
Qum sovurdu,
Sonra... yatdı.

Ay külək, aşırdığın
Hindisə,
Qaçırdığın əgər köynəkdi,
Bu küy, kələk bəs
Nəyə gərəkdi?

## DƏNİZ

Xəzri əsir
uzanır dənizin dili,
Buğum-buğum ləpələr
yalayır sahili.
Aparır qumu,
Gətirir qumu,
Dəniz öz işindədir
Bilmir heç
Soruşmur heç,
Kim olduğumu.
Oyur qumu,
Yuyur qumu
Ah, bilsəydi,
Ah, bilsəydi
Mənim nələr
duyduğumu...

## CEYRAN

Ceyran dara düşdü,
Təntidi birdən.
Ürəyi vurdu
Gözü alacalandı.
Uçurumun qırağında
Dayandı.
Solu dərə,
Sağı dağ...
Ovçu nişan aldı
Ürəyi şad,
Damağı çağ.
Tax, tarax...
Ceyran yıxıldı, qalxdı,
Bir də yıxıldı
Qıvrıla-qıvrıla
Can çəkə-çəkə
Döşündə qırmızı,
Yelinində ağ ləkə,
Biri südü, biri qanı,
Düzlər yas saxladı
Dağlar dilə gəldi,
Danladı insanı.

*1967*

## SEVMİRƏM BULUDLARI

Göyə bulud gələndə,
Ürəyim sıxılır bərk,
Bilirəm ki, əsəcək,
Az keçməmiş ya külək,
Ya da yağacaq yağış.
Olmasa da hələ qış.
Buludlara baxıram,
Axırlar uzaqlara,



Bəzisi ağ, bəzisi,
Kömür kimi qapqara,
Buludlardan yuxarı,
Yenə bulud qatarı.
Sevmirəm buludları,
Sevmirəm buludları.
Bilirəm ki, gərəkdir
Bizə yağış da, qar da,
Qış da, yaz da, payız da,
Allı-güllü bahar da.
Hərəsinin öz yeri,
Öz xeyiri var bizə,
Otlar boy atarmı heç,
Yağış yağmasa düzə?
Hə... buludu sevmirəm,
Söylədim ki, əzəldən,
Buludlardan yuxarı,
Nə var deyim, indi mən:
Buludlardan o yana,
Günəş durur qırmızı.
Görünür, sevindirir,
Hər oğlanı, hər qızı.
İstəyirəm həmişə
Göy üzü təmiz olsun!
Qara buludsuz, açıq,
Mavi bir dəniz olsun!
Örtülməsin heç zaman
Ana günəşin üzü,
İşıqlatsın şuası,
Çölü, çəməni, düzü!
Günəşdən də o yana,
Çoxlu ulduzlar durur,
Hava qaralan kimi,
Elə bil ki, göz vurur.
Hərəsi bir dünyadır
Ulduzların bəlkə də,
Oralarda var dəniz,

Çox vətən, çox ölkə də?
Bəlkə uşaqlar da var,
Baxırlar ulduzlara?
Bəlkə uşaqlar da var,
Rəngi sarı, ağ, qara?
Deyirəm ki, nolaydı,
Ora uça biləydim,
Əgər varsa uşaqlar,
Əgər varsa zülmkar,
Qoldakı zəncirləri
Qırıb, aça biləydim!
Deyirəmi ki, nolaydı,
Ora uça biləydim,
Ora uça biləydim!

## XƏZƏR "QOCALIB"...

Dəniz ləpə-ləpə,
Dəniz şüşə-şüşə,
Dəniz qalxa-qalxa,
düşə-düşə,
Cavahir parıltıları,
Gözlərə düşə-düşə,
Dəniz pul-pul.
Atam dedi:
Xəzər belə olmur
həmişə,
oğul!
Ona kişi gərək
Cumuşa bərk!
Ona kişi gərək
Kişi ürək!
Babalar söyləyib:
Xəzər qərinədə bir yol belə olur,
Belə olanda,
Xəzər də adam kimi



Fikrə dalır,
Axtarır, sən demə
Xəzər ürəkli oğullarını
Tapşırmaq istəyir
bu qoca,
rahatca,
Onlara bütün varını...
– Dənizin nə varı?
Atam: – Var!.. – dedi
– Xəzərə çox yaraşır
Xəzər ürəkli
Oğullar!.. dedi.

## QAYALAR

Mən bu qumların üstə keçirmişəm illəri,
Ərköyün uşaq kimi yetmişəm boya-başa.
Qarış-qarış gəzmişəm qayalı sahilləri,
Sulara heyran-heyran çox etmişəm tamaşa.

Yadımdadır indi də daş atıb, tor qurduğum
Havadakı quşlara, sudakı balıqlara;
Xatirə qalsın deyə çoxlu nişan vurduğum,
Sinəsi düyüm-düyüm o sərt qayalıqlara.

Quşlar oyanmamışkən yuxudan, səhər-səhər
Çal qayanın üstünə yetirərdim özümü.
Yeltək ötüşsəydi də saatlar, dəqiqələr,
Xəzərin sularından ayırmazdım gözümü.

Sevincim aşar-daşar şıltaq ləpələr kimi,
Günüm belə keçərdi, qayğısız, səhər-axşam.
Mən dünyaya gələrkən ilk sevgimi, eşqimi
Bu sahildə, bu yerdə, bu dənizdə tapmışam.

Bir qanadlı quş oldu uşaqlıq zamanları,
Demirəm ki, eşqimi, sevincimi apardı.
İndi yada salıram bircə-bircə onları.
Ah, o günlərimin də başqa aləmi vardı!

İndi də oturmuşam haman qayanın üstə,
Axşam düşür, qaranlıq gərir öz qanadını,
Quşlar, yenə o quşlar, ötüşür dəstə-dəstə,
Mən tapıram qayada nəqş olunmuş adımı.

Yenə də nəzərlərim dikilir göy sulara,
Ulduzlarını sayrışır ləpələrdə görəsən?
Yox, yox yanılıram mən, ulduz hara, su hara?
Buruqlardır, neft çəkir göy Xəzərin dibindən.

İndi Xəzərin özgə hüsnü var, aləmi var,
İnsan oğlu onun da sinəsini bəzəyir.
Dalğaların qoynunda işıq saçan buruqlar
Cərgə ilə düzülmüş adalara bənzəyir.

Budur, yenə də ötdü havada bir dəstə quş,
Bir şamayı atılıb düşdü suya təzədən...
Qəlbim indi başqa bir gözəlliyə vurulmuş,
Uşaqlıq günlərimi unutmuram yenə mən.

İndi bu, sahillərə baxdıqca heyran-heyran
Görürəm ki, dəyişmiş qurular da, sular da.
Bu azad ölkəmizdə xoşbəxt yaşayan insan
Öz qadir əllərilə od axtarır sularda.

Hardasınız, qayıdın, ey uşaqlıq günləri,
Mən bu gözəl aləmə vermişəm öz qəlbimi.
İstəyirəm bu doğma, qayalı sahilləri
Dolanam uşaq kimi, sevəm bir böyük kimi!



# Nəğmələr

## SƏN MƏNİM, MƏN SƏNİN!

Qara gözün aldı canım,
Aldı canım,
Qəlbimdədir arzu, – kamım,
Arzu kamım.
Gözəllərə naz yaraşır
Naz yaraşır,
Vüsalına var gümanım
Var gümanım.
Gül gözəl,
Bil, gözəl
Sən mənim
Mən sənin.
Gəzdim Azərbaycanı
Tapdım sənin kimi ceyranı.
Gəl mənə naz eyləmə
Olum gözlərinin qurbanı.
Gül, gözəl,
Bil, gözəl,
Sən mənim
Mən sənin.
Ətirli güllər üzərəm
Üzərəm mən.
Tellərini mən bəzərəm
Bəzərəm mən.
Sən elimin göyçəyisən
Göyçəyisən.
Hər dərdinə mən dözərəm
Dözərəm mən.